"Təsdiq edirəm":
Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektoru,
professor C.M.Cəfərov

"30" Yanvar 2024-cü il

**Azərbaycan Dövlət Pedaqoji Universitetində**

**ingilis dilinin tədrisinin təkmilləşdirilməsi haqqında**

# QAYDALAR

## 1. Ümumi müddəalar

1.1. Azərbaycan Dövlət Pedaqoji Universitetində ingilis dilinin tədrisinin təkmilləşdirilməsi haqqında Qaydalar (bundan sonra "Qaydalar") "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 12 avqust 2022-ci il tarixli, 302 №-li Qərarı ilə təsdiq edilmiş publik hüquqi şəxs statusuna malik olaraq Azərbaycan Dövlət Pedaqoji Universiteti nizamnaməsinə uyğun olaraq hazırlanmış və Azərbaycan Dövlət Pedaqoji Universitetində (bundan sonra "Universitetdə" adlandırılacaq) ingilis dilinin tədrisinin daha da təkminləşdirilməsi üçün tədbirlərin keçirilməsi qaydasını müəyyən edir.

1.2. Qaydalar Universitetin Bakıda və filiallarında kadr hazırlığı aparılan bütün ixtisaslarda və təhsil səviyyələrində (doktorantura istisna olmaqla) təhsil alanlara şamil edilir.

1.3. Bu qaydaların məqsədi universitetə, onun filiallarına və kollecinə qəbul edilmiş tələbələrin ilk semestrdə (və ya xarici dilin tədris olunduğu semestr başlamadan öncə) dərslərə başlamadan öncə ingilis dili bacarıqlarını yoxlamaqla səviyyə qruplarına bölmək, ingilis dilinin tədrisini səviyyə qruplarına görə təşkil olunmasını, qəbul olanlar içərisində ingilis dilindən qüvvədə olan müvafiq sertifikatları olan tələbələri analoji dərsi dinlənməkdən azad etmək yolu ilə, universitetdə ingilis dilini yaxşı səviyyədə bilənlərin sayını artırmaqdır.

1.4. Bu qaydaların əsas vəzifəsi universitetdə ingilis dilinin tədrisi prosesinin daha da təkmilləşdirilməsi və tələbələrin müvafiq dildən bilik və bacarıqlarının daha da inkişaf etdirilməsi və bu prosesin obyektiv qiymətləndirilməsini təmin etməkdir.

## 2. Təhsilalanların ingilis dili bacarıqlarının yoxlaması qaydası

2.1. Təhsilalanların ingilis dili bacarıqları bir qayda olaraq xarici dilin tədris olunduğu semestr başlamadan öncə universitetin Xarici Dillər Mərkəzinin müəllimləri tərəfindən test üsülü ilə yoxlanılır.

2.2. Təhsilalanların ingilis dili bilik və bacarıqlarını yoxlamaq üçün səviyyə testi 8 (A, B, C, D, E, F, G, H olmaqla) variantda və 50 sualdan ibarət olmaqla hazırlanır.

Сканировано с CamScanner

2.3. Variant üzrə test sual kitabçasında müvafiq olaraq 15 sual qrammatika, 15 sual lüğət və 10 sual oxu və 10 sual dinləmə bacarıqlarını əhatə edir. Bu prosesdə danışıq və yazı bacarıqları yoxlanılmır.

2.4. Təhsilalanların ingilis dilindən səviyyə qruplarına bölünməsi üçün imtahan, ixtisasların tədris planına uyğun olaraq xarici dil (İngilis dili) fənninin tədris olduğu semestrdən öncə təşkil olunmalıdır.

2.5. Xarici Dillər Mərkəzinin müdirinin təqdimatı ilə, rektorun əmri ilə yaradılmış qrup testləri çoxvariantlı olaraq təhsil səviyyələrinə görə (subbakalavr, bakalavr və magistr) hazırlayır və təhsilalanların fakültələri (şöbələri) tərəfindən müvafiq tələbələrə imtahan təşkil olunur. Səviyyə qruplarına bölünmə imtahanlarında Filologiya fakültəsi dekanının verdiyi müvafiq təqdimata əsasən işçi qrupun üzvləri iştirak edirlər. Prosesə akademik heyətdən dəstək cəlb oluna bilər.

2.6. İmtahan nəticələri Xarici dillər Mərkəzinin müəyyən edilmiş əməkdaşları tərəfindən yoxlanılır və nəticələr elan olunur.

2.7. Test imtahan nəticəsinə görə hər doğru cavab 2 balla hesablanır və maksimal bal 100 bal hesab olunur. Yalnış cavab doğru cavabı silmir. Mümkün 100 baldan 60 bal və üstü toplayanları güclü qrupa, 60 baldan az toplayanlar isə zəif qruplara daxil edilir. Təhsilalanları yığdığı bala görə səviyyə qruplarına fakültə dekanlığı ilə Xarici dillər Mərkəzinin fakültə üzrə kuratoru bölür.

2.8. Güclü və zəif qrupların sillabüsları müvafiq olaraq metodiki tələblər gözlənilməklə Xarici dillər Mərkəzinin əməkdaşları tərəfindən hazırlanır.

2.9. Təhsilalanlar ingilis dilindən səviyyə qruplarına bölünərkən Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 23 aprel tarixli, 75 nömrəli qərarı ilə təsdiq edilmiş "Ali təhsil pilləsinin dövlət standartı və proqramı"nın 8.8. bəndi (tədris qruplarında sıxlıq maddi-texniki bazadan asılı olaraq, 15-30 nəfər müəyyənləşdirilir. Bəzi spesifik məşğələ (xarici dil, və s.) və laboratoriya dərsləri üzrə tədris qrupları müvafiq normativlərə uyğun olaraq yarımqruplara bölünə bilərlər.) tələbləri gözlənilir.

2.10. Təhsilalanlar ingilis dilindən səviyyə qruplarına bölünərkən qanunvericiliyin tələblərini gözləməklə, eyni kredit həcmi və eyni tədris binası olduğu təqdirdə ixtisaslar arası, fakültələrarası səviyyə qruplarıda yaradıla bilər.

2.11. Güclü qruplarda Xarici dillər Mərkəzinin TKT sertifikatlı müəllimləri tədris aparır.

## 3. Universitetə qəbul olmuş təhsilalanların qüvvədə olan beynəlxalq dil serfikatına görə müvafiq fənn üzrə təhsil kreditini toplamaqdan azad olunması qaydası

3.1. Universitetə təhsilin bütün pilləri üzrə qəbul edilmiş təhsilalanlar (xarici dil müəllimliyi ixtisasında təhsil alanlar istisna) qüvvədə olan xarici dil sertifikatına görə almalı olduqları xarici dil fənnin tədrisindən azad hesab olunurlar.

3.2. Buna baxmayaraq təhsilalanın könüllü və öz ərizəsi əsasında fənndə oturmağı və bununla bağlı öhdəlikləri qəbul etmək hüququ da vardır.

3.3. Müvafiq sertfikatı olanlar əlavə 3-də müəyyən olunmuş APTİS imtahanından B2, İELTS imtahanından 6,5 və TOEFL imtahanından 79-93 bal toplayan tələbələrə universitetdə xarici dil dərslərində, müvafiq sertifikatı fənndə iştirak edən şəxs müvafiq fənndən imtahanadək təqdim etdikdə imtahandan azad olunma hüququ verilir.

Сканировано с CamScanner

3.4. Fənndən və ya imtahanda iştirak etməkdən azad edilmiş şəxslər müvafiq serfikatına uyğun qiymətləndirmə balına uyğun nəticəni almış hesab olunur və bu barədə qeyd fənnin imtahan vərəqində və ya diploma əlavədə qeyd olunur.

## 4. Yekun müddəalar

4.1. Filiallarda və kollecdə bu qaydalar onların özləri tərəfindən, ADPU-nun Xarici dillər Mərkəzinin metodiki dəstəyi ilə aparılır.

4.2. Bu qaydalar ADPU Elmi Şurasında qəbul olunur və rektor tərəfindən təsdiq olunur. Qaydalara əlavələr, dəyişikliklər də eyni qaydada həyata keçirilir.

Сканировано с CamScanner

Əlavə 1

**Azərbaycan Dövlət Pedaqoji Universitetində
təhsil səviyyələri üzrə ingilis dilidə işgüzar və akademik kommunikasiya
fənnin tədris olunması haqqında məlumat**

| № | Təhsil səviyyəsinin adı | Xarici dili tədrisi nəzərdə tutan fənnin adı | Cəmi kredit | Necə semestr |
|---|---|---|---|---|
| 1. | Orta ixtisas təhsili | Xarici dildə işgüzar və akademik kommunikasiya | 15 | 2 |
| 2. | Bakalavr təhsili | Xarici dildə işgüzar və akademik kommunikasiya | 15 | 2 |
| 3. | Magistr təhsili | Xarici dil (İngilis) və 3 ixtisasda Kommunikativ və akademik xarici dil (İngilis) | 6 | 1 |

Əlavə 2

**Azərbaycan Dövlət Pedaqoji Universitetində
ingilis dilin ixtisaslarda tədris olunduğu semestrlər
haqqında məlumat**

Subbakalavriat təhsil səviyyəsi üzrə

| № | İxtisasın şifri | İxtisasın adı | İngilis dilində işgüzar və akademik kommunikasiya I fənnin tədris olduğu semestr | Qeyd |
|---|---|---|---|---|
| 1. | 040101 | Ailə və ev təhsili | 1 | |
| 2. | 040102 | Fiziki tərbiyə müəllimliyi | 1 | |
| 3. | 040103 | İnklüziv təhsil | 1 | |
| 4. | 040104 | Məktəbəqədər təhsil | 1 | |
| 5. | 040713 | Sosial iş | 1 | |
| 6. | 040532 | Kompüter şəbəkələri və şəbəkə inzibatçılığı | 1 | |
| 7. | 040316 | Rəngkarlıq (sahələr üzrə) | 1 | |
| 8. | 040313 | Mədəni kütləvi tədbirlərin təşkilatçısı | 1 | |
| 9. | 040305 | Dekorativ-tətbiqi sənət (sahələr üzrə) | 1 | |

Сканировано с CamScanner

Bakalavriat təhsil səviyyəsi üzrə

| № | İxtisasın şifri | İxtisasın adı | İngilis dili işgüzar və akademik kommunikasiya I fənnin tədris olduğu semestr | Qeyd |
|---|---|---|---|---|
| 1. | 050101 | Azərbaycan dili və ədəbiyyatı müəllimliyi | 1 | |
| 2. | 050102 | Biologiya müəllimliyi | 1 | |
| 3. | 050103 | Coğrafiya müəllimliyi | 1 | |
| 4. | 050104 | Dil və ədəbiyyat müəllimliyi (Türk və Rus dillər üzrə) | 1 | İngilis dili və ədəbiyyatı istisna |
| 5. | 050105 | Fizika müəllimliyi | 1 | |
| 6. | 050106 | Fiziki tərbiyə və çağırışaqədərki hazırlıq müəllimliyi | 1 | |
| 7. | 050107 | İbtidai sinif müəllimliyi | 1 | |
| 8. | 050108 | İnformatika müəllimliyi | 1 | |
| 9. | 050109 | Kimya müəllimliyi | 1 | |
| 10. | 050110 | Kimya və biologiya müəllimliyi | 3 | |
| 11. | 050111 | Korreksiyaedici təlim | 2 | |
| 12. | 050112 | Məktəbəqədər təhsil | 2 | |
| 13. | 050113 | Musiqi müəllimliyi | 2 | |
| 14. | 050114 | Riyaziyyat müəllimliyi | 1 | |
| 15. | 050115 | Riyaziyyat və informatika müəllimliyi | 2 | |
| 16. | 050116 | Tarix müəllimliyi | 2 | |
| 17. | 050117 | Tarix və coğrafiya müəllimliyi | 2 | |
| 18. | 050118 | Təhsildə sosial-psixoloji xidmət | 3 | |
| 19. | 050119 | Təsviri incəsənət müəllimliyi | 1 | |
| 20. | 050120 | Texnologiya müəllimliyi | 1 | |
| 21. | 050121 | Xarici dil müəllimliyi (dillər üzrə) | 3 | İngilis dili istisna |
| 22. | 050807 | Sosial iş | 1 | |

Сканировано с CamScanner

Magistratura təhsil səviyyəsi üzrə

| № | İxtisasın şifri | İxtisasın adı | Xarici dil (İngilis) və Komunikativ və akademik xarici dil (İngilis) fənnin tədris olduğu semestr | Qeyd |
|---|---|---|---|---|
| 1. | 060101 | Azərbaycan dili və ədəbiyyatı müəllimliyi | 1 | |
| 2. | 060103 | Xarici dil müəllimliyi(ingilis dili) | 1 | |
| 3. | 060104 | Fizika müəllimliyi | 1 | |
| 4. | 060105 | Riyaziyyat müəllimliyi | | |
| 5. | 060106 | Fiziki tərbiyə və çağırışaqədərki hazırlıq müəllimliyi (qızlar üçün fiziki tərbiyə) | 1 | |
| 6. | 060107 | Texnologiya müəllimliyi | 1 | |
| 7. | 060108 | Musiqi müəllimliyi | 1 | |
| 8. | 060109 | Biologiya müəllimliyi | 1 | |
| 9. | 060110 | Kimya müəllimliyi | 1 | |
| 10. | 060111 | Tarix müəllimliyi | 1 | |
| 11. | 060112 | Coğrafiya müəllimliyi | 1 | |
| 12. | 060113 | İnformatika müəllimliyi | | |
| 13. | 060114 | Təsviri incəsənət müəllimliyi | 1 | |
| 14. | 060115 | İbtidai sinif müəllimliyi | 1 | |
| 15. | 060116 | Korreksiyaedici təlim | 1 | |
| 16. | 060117 | Məktəbəqədər təlim və tərbiyə | 1 | |
| 17. | 060118 | Təhsildə sosial-psixoloji xidmət | 1 | |
| 18. | 060119 | Pedaqogika | 1 | |
| 19. | 060407 | Menecment | 1 | |
| 20. | 060408 | Marketinq | | |
| 21. | 060409 | Biznesin idarə edilməsi | 1 | |
| 22. | 060805 | Sosial iş | 1 | |

Сканировано с CamScanner

**Azərbaycan Dövlət Pedaqoji Universitetinə qəbul olmuş təhsilalanların qüvvədə olan beynəlxalq dil sertifikatına sahib olmasına görə “İngilis dilində işgüzar və akademik kommunikasiya” fənnin dinləmədən azad olunması və qiymətlərin uyğunlaşdırılması cədvəli**

| Ali təhsildə qiymətləndirmə (hərifl, sözlə, rəqəmlə) | | | APTİS | İELTS | TOEFL | ADPU-nun qərarı |
|---|---|---|---|---|---|---|
| F | qeyri-kafi | 51 baldan aşağı | - | - | - | Qəbul edilmir |
| E | qənaətbəxş | 51-60 bal | 46-59 | A2 | 5,5 | Qəbul edilmir |
| D | kafi | 61-70 | 60-78 | B1 | 6,0 | Anoloji qiyməti qəbul edir |
| B | Çox yaxşı | 71-80 | 79-93 | B1 | 4 - 5 | Anoloji qiyməti qəbul edir |
| A | əla | 81-90 | 94-101 | B2-C1 | 6 -7,5 | Anoloji qiyməti qəbul edir |
| A | əla | 91-100 | 102-120 | C2 | 8-9 | Anoloji qiyməti qəbul edir |

Сканировано с CamScanner